# "Nizami irsi" Çində




❒ ***Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrası ölkəmizdə 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması münasibətilə Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrası "Nizami irsi" layihəsinə start verib.***

Kafedranın müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev bildirib ki, layihə bir il ərzində həyata keçiriləcək tərdbirlər silsiləsindən ibarət olacaq. Məqsəd Azərbaycanın dahi şairi Nizami Gəncəvinin irsini Çin ictimaiyyətinə daha yaxından tanıtmaq, eyni zamanda, Çin–Azərbaycan ədəbi əlaqələrində Nizami irsinin rolunu araşdırmaqdır.

A.Əliyevin sözlərinə görə, il ərzində Nizami Gəncəvi irsi haqqında Çin dilində elmi və publisistik məqalələrin dərci, sərgi və elmi konfransın təşkili, Nizaminin əsərlərinin, Azərbaycan və dünya nizamişünaslığına aid elmi araşdırmaların Çin dilinə tərcüməsi həyata keçiriləcək, habelə nizamişünaslığın yaranması və inkişafı problemləri tədqiq ediləcək.

Qeyd edək ki, ÇXR Təhsil Nazirliyinin müvafiq qərarına əsasən, ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından olan Pekin Xarici Dillər Universitetində 2018–2019-cu tədris ilindən etibarən Azərbaycan dili üzrə kadrlar hazırlanmasına başlanılıb. Bütün Asiya məkanında Azərbaycan dili ixtisası üzrə tələbə qəbulu və Azərbaycan dili kafedrası ilk dəfə PXDU-da təşkil olunub. Azərbaycan tərəfinin təşəbbüsü və dəstəyi ilə burada ötən illər ərzində dəfələrlə ölkəmizlə bağlı tədbirlər keçirilib. Azərbaycan həqiqətlərini, dilimizin və mədəniyyətimizin təbliğini elmi yolla reallaşdıran layihələr icra olunub.

***Hazırladı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 30 yanvar.- S.11.